Müasir dünya fəlsəfəsi kontekstində Azərbaycan fəlsəfəsinin əsas prioritetləri haqqında

İlham Məmmədzadə

Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə İnstitutu

Müasir Azərbaycan fəlsəfəsinin əsas prioritetləri üzərində dayanmazdan əvvəl qeyd etmək istərdik ki, müasir Qərb fəlsəfəsində əsas bir istiqamət, məktəb deyil, istiqamət və cərəyanların plüralizmi üstünlük təşkil edir. Fəqət bəzi məsələlər vardır ki, onlara olan maraq filosoflarda müzakirə etmək, iştibahları bildirmək, öz nəticələrini əsaslandırmaq və sübuta yetirmək arzusu doğurur: birincisi, fəlsəfi həqiqət nədir, o, elmi həqiqətlərdən fərqlənirmi və elm üçün zəruriliyi nədən ibarətdir; ikincisi, siyasət, beynəlxalq münasibətlər əxlaqi (əxlaq qaydalarına uyğun) ola bilərmi və əxlaqda, dəyərlər sistemində və s. siyasətdən nə dərəcədə istifadə etmək olar; üçüncüsü, fəlsəfə tarixi ciddi, sübutedici, inandırıcı ola bilərmi? Bu suallarla, hər halda, milli və universal fəlsəfə arasında qarşılıqlı münasibətlər məsələsi bağlıdır.

Amerika analitik, Avropa kontinental və Rusiya fəlsəfələrinin mülahizələri və dəlilləri arasında fərqləri qeyd edək. ***Amerika analitik*** fəlsəfəsi, ilk növbədə, yuxarıda göstərilən məsələlərin məntiqi-linqvistik təhlilidir. Məntiq, dilin fəlsəfəsi həqiqətitapma vasitəsidir. ***Avropa fəlsəfəsi*** üçün postmodernizmin nə olduğunun qavranılması və ya dərk olunması, habelə multikulturalizm, mədəniyyətlərin dialoqu, kommunikasiyalar problemlərinin təhlili aktualdır. Burada elmilik çox vaxt multidissiplinar (çoxfənli) araşdırmaların köməyi ilə əldə olunur. Beləliklə, fəlsəfə ictimai elmlər üçün müxtəlif elmi bilikləri birləşdirməyə qadir elmə çevrilir. ***Rusiya fəlsəfəsi*** analitik və Avropa fəlsəfəsinin elementlərini birləşdirməyə çalışır. Ən azı, vurğulanır ki, dilin fəlsəfəsi ilə yanaşı, şüur, mədəniyyət və təcrübə fəlsəfəsi inkişaf etdirilməlidir. Məsələn, analitik fəlsəfə fəlsəfə tarixi ilə maraqlanmır, Rusiya fəlsəfəsi isə həm universal Qərb fəlsəfəsinə, həm də müxtəlif dünya xalqlarının fəlsəfəsinə ciddi diqqət yetirir. Son vaxtlar Rusiya fəlsəfəsində elm fəlsəfəsi məsələlərinə, həqiqət problemlərinə də fikir verilir. Onu da qeyd edək ki, Amerika filosofları arasında Avropa yönümlü ciddi filosoflara rast gəlmək olar (T.Rokmor).

Bu qeydlər bizə müasir fəlsəfəmizin əsas prioritetlərini ifadə etməyə imkan verir. Fikrimizcə, birincisi, bu yalnız fəlsəfəyə, fəlsəfə tarixinə deyil, həm də bütövlükdə ictimai elmlərə inandırıcılıq, sübutedicilik verəcək multidissiplinar (çoxfən-

li) tədqiqatlardır. Bundan başqa, həmin tədqiqatlar bu elmləri fəlsəfənin özündə sübutedici və əsaslandırılmış edərək onları birləşdirmək imkanı yaradır. İkincisi, milli tarix fəlsəfəsinin inkişafına və onun fəlsəfə tarixi ilə əlaqələrinin dərkinə xüsusi əhəmiyyət vermək lazımdır. Üçüncüsü, azərbaycançılıq ideologiyası, mənəvi və vətəndaşlıq tərbiyəsi, maarifçilik fəlsəfəsi və s. sahəsində tədqiqatlara diqqət artırılmalıdır.

Fənlərarası tədqiqatlar haqqında

Fənlərarası tədqiqatlar son illər elmdə aktuallıq kəsb etmişdir. «Kəşflər elmlərin qovuşuğunda baş verir» ifadəsi adiləşmişdir. Hətta demək olar ki, onlar üstünlük təşkil edən istiqamət (trend) kimi məcburi, vacib yanaşma statusu qazanmışdır. Fəqət bu hələ o demək deyildir ki, bu cür araşdırmalar ciddi fəlsəfi tədqiqat obyekti olub. Təbii ki, onlar praktik mənada daha çox fundamental elmlərdə istifadə edilir. Faktiki olaraq, yeni fənlər, yeri həmhüdud, bir-birinə çox yaxın tədqiqat obyektləri meydana çıxmışdır. Bu xüsusda qeyd edək ki, fənlərarası qarşılıqlı əlaqələrin elmi tədqiqi onların fəlsəfi dərkindən fərqlənir.

Bizim fikrimizcə, müxtəlif sahələrə aid və əvvəlki bölgü, o cümlədən ictimai elmlərin bölgüsü çərçivəsində təhlili mümkün olmayan informasiyadan getdikcə daha çox istifadə etmək lazım gəlir. Bundan başqa, fəlsəfə, sosiologiya, biologiya və görünür ki, bütün fundamental elmlər arasında münasibətlərin mənalandırılması zərurəti hiss olunur. Beləliklə, fənlərarası problemlərin dərki fəlsəfəsi, onların keyfiyyəti və dərinliyi, bir tərəfdən, müəyyən anlayış, məna, obrazlar, məntiq və kommunikasiyalarla təmin olunmalıdır. Digər tərəfdən, elmin özünün də onlara tələbatı vardır. Elə həmin fizika, biologiya, kimya daha çox metafizikanın, fəlsəfənin onlara lazım olduğu həmsərhəd sahələrlə (məsələn, həyat və ölüm) qarşılaşır.

Fəlsəfə fənlərarası tədqiqatlardan çox şey qazana bilər. Lakin bunun üçün o özünü, keçmişini (fəlsəfə tarixini) yenidən, yeni dövrün ruhunda dərk etməlidir ki, indinin (məsələn, cəmiyyətin konsolidasiyası) və gələcəyin (proqnozlaşdırma) təmayüllərini əvvəlcədən görə bilsin. Aydındır ki, fənlərarası tədqiqatların spesifik xüsusiyyətlərinin fəlsəfi dərkinə bu problemin fəlsəfədə təşəkkülü tarixinə müraciətdən başlamaq, daha sonra isə onun hazırkı vəziyyətinin bəzi cəhətlərini, tədqiqat prioritetlərini nəzərdən keçirmək səmərəli olardı.

Fikrimizcə, fəlsəfə tarixinə müraciət dissiplinar və fənlərarası qarşılıqlı təsir və əlaqələrin inkişafı arasında bağlılıqları görməyə imkan verəcəkdir.

Bu gün artıq aydındır ki, fənlərarası araşdırmalar zəruridir, lakin fənlərarası tədqiqatların fəlsəfi təhlilinin əhəmiyyətini anlamaq, onların əhəmiyyətinin ayrı-ayrı fənlərin inkişafını inkar etmədiyini, əksinə, nəzərdə tutduğunu görmək və mütləq (hökmən) əsaslandırmaq lazımdır. Bir tərəfdən, fənlərarası tədqiqatlarla əlaqədar olan qeyri-klassik yanaşmaların, digər tərəfdən, fənn bölgüsünü ehtiva edən klassik elmin bir-birilə bağlı olduğu meydana çıxır. Lakin onların fundamental və ictimai elmlər-

də, həmçinin bu və ya digər konkret tədqiqatın müxtəlif mərhələlərində necə olması aydınlaşdırılmalıdır. Nəzərə alınmalıdır ki, hər bir konkret biofizik, yaxud biokimyaçı özünün fənlərarası sahəsi və obyekti ilə məşğul ola, lakin müxtəlif səbəblərdən öz obyektinin klassik fizika, riyaziyyat, yaxud kimya və s. ilə əlaqələrini görməyə bilər. Amma filosof onları görməyə borcludur, çünki o, fəlsəfənin spesifikliyi, elm və fəlsəfənin inkişafının tarixi əlaqələri səbəbindən, metodologiya və epistemiologiyaya diqqəti sayəsində onları görə bilər.

Fənlərarası yanaşma fəlsəfəsi fənlərarası qarşılıqlı təsir və əlaqələrin müxtəlif tiplərini üzə çıxarmağa imkan verəcəkdir.

Hal-hazırda biz fənlərarası qarşılıqlı təsirin üç tipini fərqləndirə bilərik. Birincisi, biologiya və fizikanın, fəlsəfə və sosial kommunikasiya nəzəriyyəsinin, sosial linqvistikanın və s. fənlərarası qarşılıqlı təsiri. Bu cür qarşılıqlı təsir çərçivəsində qarşılıqlı təsirdə olan fənlərin predmetləri, metodları və nəticələrinin fərqlənməsini nəzərdə tutan hüdudların dəqiqliyi saxlanır. İkincisi, fənlər arasında dəqiq sərhədlərin olmadığı fənlərarası sistemlərin yaranması. Coğrafiya, iqtisadiyyat, beynəlxalq münasibətlər, kulturologiya, siyasi elm, məsələn, vahid ölkəşünaslıq sistemində birləşir, yaxud bir çox fənlərin qovuşuğunda təşəkkül tapan proqnozlaşdırma nəzəriyyəsi. Bu fənlər qarşılıqlı təsir göstərərək, bir-birini tamamlayaraq, bu və ya digər ölkənin, regionun gerçəkliyini, yaxud dünyanın yaxın gələcəyinin bütöv mənzərəsini yaradır. Burada ayrı-ayrı fənlər fənlərarası tədqiqat üçün ehtiyat bazası təşkil edir. Üçüncüsü, elmin fənlərarası sistemlərində ayrı-ayrı fənlərdə istifadə oluna biləcək universal metodologiyanın (məsələn, marksizm, yaxud A.Toynbinin çağırışlar nəzəriyyəsi) təklif olunduğu və əsaslandırıldığı tip. Bunlara elmdə sərhədləri tanımayan sistemlər nəzəriyyəsi, informasiya nəzəriyyəsi, fəlakətlər nəzəriyyəsi aiddir.

Bizcə, bu da vurğulanmalıdır ki, fənlərarası tədqiqatların təşkili kifayət qədər mürəkkəb və məsrəf tələb edən işdir. Bir tərəfdən, onların aparılması üçün üç növ, özü də müxtəlif fəaliyyət sahələri ilə bağlı olan vəzifə yerinə yetirilməlidir: metodoloji vəzifələr (fənlərarası tədqiqat obyektini müşahidə və təsvir etmək). Dərhal daha bir sual yaranır: hansı fənn nümayəndəsi və hansı anlayışlar vasitəsilə onu «müşahidə və təsvir edə» bilər; təşkilati vəzifələr – fənlərarası tədqiqatların yaradılması (o cümlədən maliyyələşdirilməsi); informasiya vəzifələri – nəticələrin digər fənlərin nümayəndələrinə çatdırılmasının təmin edilməsi.

Digər tərəfdən, belə tədqiqatların təşkili sahəsindəki təcrübəmiz (seminar və konfransların keçirilməsi) göstərir ki, fənlərarası tədqiqatların prioriteti hansısa mənada bu və ya digər konkret fənlərdə alimlərin korporativ birliyinə «təhlükə» duyulmasına gətirib çıxarır. Biz hesab edirik ki, elmin ayrı-ayrı sahələri daxilində iyerarxiya pozulur, bu və ya digər fənnin keçmişinin, onun kateqorial aparatı təşəkkülünün yenidən dərk olunmasına gözəçarpan tələbat, bəzən isə qeyri-elmi bilik sahələrinin əhəmiyyətini görmək zərurəti də yaranır.

Fənlərarası tədqiqatlar fəlsəfəsi formal və qeyri-formal məntiq əlaqələrinin aktuallığını bərpa edir. Və əgər onlar fundamental elmlərdə riyazi məntiq kimi iştifadə edilirsə, ictimai elmlər üçün buna diqqət yetirmək zəruridir.

Fənlərarası tədqiqatlar fəlsəfəsi fəlsəfə və tarix, fəlsəfə və siyasət, fəlsəfə və şüur, təcrübə, fəlsəfə və mədəniyyət və s. arasında əlaqələrə və tədqiqatlara marağı şərtləndirəcək.

Fəlsəfə və tarixdə fənlərarası qarşılıqlı təsirin böyük təcrübəsi toplanıb. Belə ki, məsələn, Fukididin irsinə həm fəlsəfə, həm tarix, həm də siyasi elm iddia edə bilər. N.Makiavelli ilə bağlı eyni vəziyyət mövcuddur, bu siyahını artırmaq da olar. Fəlsəfəni hətta təfəkkür haqqında düşüncə (və ya fikir haqqında fikir) tarixi kimi müəyyən etmək olar, hərçənd R.Rorti bu fikri şübhə altına alırdı. Bu qarşılıqlı təsirin bir neçə forması mövcuddur: fəlsəfə tarixi, tarix fəlsəfəsi, nəzəri tarix və s. Bu problemə məqaləmiz kontekstində yanaşsaq, fikrimizcə, iki fundamental yanaşma fərqləndirilməlidir: fəlsəfənin fənlərarası qarşılıqlı təsirin keçmişdə necə olduğunun təhlilini ehtiva etməsindən çıxış edən tarixi-fəlsəfi yanaşma və bu qarşılıqlı təsirlərin hazırda necə olduğunu nəzərdən keçirən məhz fəlsəfi yanaşmanın özü. Məsələn, XX əsr fəlsəfəsi, başlıca olaraq, dil fəlsəfəsi olmuşdur (L.Vitgenşteyn). Bu yalnız analitik ingilisdilli fəlsəfəyə aid deyildir. Dil problemi elm fəlsəfəsi, fenomenologiya, ekzistensializm və s. üçün mühüm olmuşdur və olaraq qalmaqdadır. Belə çıxır ki, bu fəlsəfə üçün fənlərarası qarşılıqlı təsirin əsasında, ilk növbədə, linqvistika (dilçilik) durur. Amma, əslində, bu belə deyildir. Bizcə, dillə yanaşı, şüur və təcrübənin fəlsəfəsi aktuallıq kəsb edir. Problemin bu cür qoyuluşu çoxfənli tədqiqatların yeni dərkini doğurur. Bu tədqiqatların daxili qarşılıqlı əlaqələrinin ən təbii üsulu aşağıdakıdır: təcrübə bizə şüuru dərk etməyə imkan verir, dil isə onu ifadə etmək imkanını təmin edir. Bu kontekstdə Amerika filosofu C.Serlin əsərlərini, K.Popperin intellektual təcrübə ideyasını və s. yada salmaq olar. Məsələn, Serl özünün hələ 1992-ci ildə nəşr olunmuş "Новое открытие сознания" («Şüurun yeni kəşfi») kitabında qeyd edir ki, şüur beyində fiziki proseslərin doğurduğu real subyektiv təcrübədir (1). Diqqəti buna yönəltmək istərdik ki, şüur və təcrübə fəlsəfəsi yalnız sosial və humanitar elmlərin deyil, həm də fizika, kimya və biologiyanın qarşılıqlı əlaqəsini nəzərdə tutur. Təsadüfi deyil ki, Serl bu mövqeyini bioloji naturalizm adlandırır.

İndi isə tarix fəlsəfəsi və fəlsəfə tarixinin bizim üçün xüsusi aktuallığı haqqında

Onlar yalnız fəlsəfənin deyil, həm də vətəndaşlıq mədəni (vətənpərvərlik) şüurunun identikliyini təmin edərək, onun üçün keçmişi bu gün və gələcəklə bağlayır. Bizim fikrimizcə, tarix fəlsəfəsi, tarixə konseptual metodoloji yanaşmalar olmadan birliyin (cəmiyyətin) tarixi-mədəni identikliyi formalaşa bilməz. Cəmiyyətin tipləri və formaları tarixən dəyişkəndir, buna görə də tarix fəlsəfəsi öz aktuallığını onları məntiqi surətdə birləşdirməklə saxlayır. «О философии: современные подходы, тенденции и перспективы» («Fəlsəfə haqqında: müasir yanaşmalar, təmayüllər və perspektivlər») adlı kitabımızda (2011) bu problemin yalnız bəzi aspektlərinə toxunmuşuq (2). Buna

görə də vurğulayaq ki, birincisi, tarix fəlsəfəsi xalqın tarixinə onun dəyərləri, mənafeyi və identikliyinin təşəkkülü prosesi kimi baxmağa imkan verir, çünki əks təqdirdə o, dövrlər və hökmdarların fəaliyyəti, dəyərlər, nümunələr və modellərin əvəzlənməsinin adicə sadalanması olardı. İkincisi, bu və ya digər dövrü öyrənən tarixçi üçün öz dövrü daha maraqlı və əhəmiyyətlidir. Lakin xalqın tarixinin mənası, mahiyyəti bu və ya digər, hətta ən dərin tarixçinin marağı ilə məhdudlaşmır, o, bütün dövrlərdə təzahür edən və ötürülən, bütövlük kimi dərk edilməli fenomenlərdə təcəssümünü tapır. Yəqin ki, söhbət xalqın keçmiş, bu gün və gələcək kimi gerçəkliyə çevrilən konkret nəsillərdə həyatını birləşdirən ruhundan və təcrübəsindən gedir. F.R.Ankersmit «ruh» əvəzinə, onun fikrincə, sevgi və itki hisslərinin paradoksal birliyi olan, keçmişə münasibətimizi müəyyən edən «yüksək tarixi təcrübə» anlayışından istifadə edir (3, s.30) (Анкерсмит Ф.Р. Возвышенный исторический опыт. М., «Европа», 2007, с.30). Fikrimizcə, cəmiyyət onu digər cəmiyyətlərdən fərqləndirən dəyərlər, ruh, özünün «yüksək tarixi təcrübəsi» ilə maraqlanmırsa, yaxud onlara marağını itirirsə, o, tənəzzülə uğrayır. O, özünə qapandıqda, dəyərlər, mədəniyyətlər və şüurların qarşılıqlı təsirinə diqqət yetirmədikdə, yaxud, əksinə, özəllikləri, fərqləri yox edən mədəni bərabərçilik (sovetləşdirmə, radikal qloballaşma və qərbləşmə), yaxud fərdiləşdirmə prosesinə fəal surətdə qoşulduqda da tənəzzülə məruz qalır. Bu halda sonrakı dövrün filosof və tarixçilərinə bu və ya digər böyük imperiyaların, dövlətlərin və mədəniyyətlərin necə dağılması müəmması üzərində düşünmək qalır.

Bizim fəlsəfəmizdə bu problemləri sistemli şəkildə akademik Ramiz Mehdiyev araşdırmışdır. O bu barədə düşünərkən bilavasitə dünya tarixinin bir hissəsi, müsəlman və türk sivilizasiyasının bir hissəsi, fars, Rusiya və sovet imperiyalarının bir hissəsi kimi dərk etdiyi Azərbaycan tarixinə müraciət edir. Buna görə də o, xeyli tarixi analogiya və paralellər gətirir. Ramiz Mehdiyevin fikrincə, keçmişə bu günün gözü ilə baxan tarix fəlsəfəsi olmadan bu analogiya və paralellər dərk edilə bilməz, çünki «köhnə dünya» tarixinin təcrübəsini gerçək aləmə, bu günə keçirmək mümkün deyildir. O, müasir dünyada fəlsəfə, mədəniyyət və tarixin qovuşuğunda səmərəli tədqiqat aparan, ölkəmizin tarixini Azərbaycan mentallığının spesifikliyinin dərki üçün vasitə olan fəlsəfi-metodoloji kontekstdə təhlil edən nadir filosoflardan biridir. Tarixə bu cür fəlsəfi yanaşma ayrıca dövrün tarixinin dərki üzrə müxtəlif variantları aydınlaşdırmaq üçün zəruridir. Tarix özü müxtəlif dövrlərin reallıqları arasında qarşılıqlı asılılığı üzə çıxara, davam edən gerçəklik kimi yeni obraz (mənalar) yarada bilməz. Üstəlik, Azərbaycan tarixi olduqca mürəkkəb, fəlsəfi baxımdan lazımi dərkini tapmamış prosesdir. O, bir sıra səbəblərdən dərk olunmamışdır, onların arasında ölkənin sivilizasiyalar arasında yerləşməsi də qeyd oluna bilər, ictimai elmlərdə belə məkan frontir, həmsərhəd, müxtəlif mədəniyyətlərin qarşılıqlı təsir məkanı adlanır. Təbii ki, ölkə bütün tarixi boyunca müxtəlif mərkəzlərə meyil etmişdir. Onun fəlsəfi-tarixi baxımdan öyrənilməməsinin başqa bir səbəbi fəlsəfədə marksist, universal yanaşmanın hökmranlığı olmuşdur, üstəlik, uzun müddət tarix fəlsəfəsi filosoflarımızı az maraqlandırmışdır. Və XX əsrin sonu XXI əsrin əvvəlində ayrı-ayrı xalqların və ölkələrin, regionların fəlsəfəsinin spesifikliyinə maraq

yarandığı zaman bu xalqların tarix fəlsəfəsinə marağı da anlaşılandır. Lakin bu marağı reallaşdırmaq xeyli çətindir, çünki Azərbaycan ictimai elmində tarixi-fəlsəfi kontent hələ sovet illərində, hətta daha əvvəl formalaşdığı halda, fəlsəfi-tarixi kontent yalnız indi aktuallıq kəsb etməkdədir. O, aşağıdakı parametrləri ehtiva edir: Azərbaycan tarixi ölkənin müxtəlif dövrlərdə müxtəlif mərkəzlərə, mədəniyyətlərə meyil etməsi səbəbindən fasiləli proses kimi qiymətləndirilən bütöv prosesdir. Bütövlük dərk və bərpa olunmalı, ümumi dəyər varisliyi qeyd və təsbit edilməli, habelə strategiyalar, mənafe və məqsədlər, onlarla birlikdə isə tarixi şəxsiyyətlərin rolu fərqləndirilməlidir, bunlar olmadan Azərbaycan tarixini bütöv proses kimi anlamaq çətindir. Və nəhayət, uzun müddət, hətta demək olar ki, bütün tarix boyunca imperiyaların bir hissəsi olmuş kiçik ölkələr üçün fəlsəfi-tarixi tədqiqatın spesifikliyi üzə çıxarılmalıdır. Özü də Azərbaycan bu baxımdan əlahiddə haldır, çünki onun xalqı müxtəlif dövrlərdə gah hakim etnos kimi imperiyanın qurulmasında iştirak etmiş (Şah İsmayıl Səfəvi), gah da bu keyfiyyətini itirərək imperiyaların hakimiyyəti altına düşmüşdür. Bu vəzifənin yerinə yetirilməsi yalnız ictimai fikrimiz və mədəniyyətimiz üçün önəmli deyil, bunun həm də ümumdünya elmi əhəmiyyəti vardır, çünki bir neçə regionun, mədəni mərkəzin və vahid dünyanın ayrılmaz hissəsi olan birlik haqqında informasiyanı açıqlayır.

Azərbaycan tarix fəlsəfəsinin inkişafı azərbaycançılıq ideologiyası sahəsində tədqiqatların inkişafını, vətənpərvərliyin (əxlaq və etikanın) tərbiyəsinə diqqət yetirilməsini şərtləndirir.

1. Azərbaycançılıq ideologiyası üçün fəlsəfə, birinci növbədə, dövlətin, cəmiyyətin həm xaricində, həm daxilində müasir dövrün əsas çağırışları, təhdidlər və cəmiyyəti birləşdirən mənafe və dəyərlər haqqında ümumi biliklər verir. Eyni zamanda, (iqtisadiyyatda, siyasətdə, humanitar sahələrdə) Azərbaycan milli xarakterini, aparıcı idarəetmə prinsiplərini nəzərə alan cavabları şərtləndirən ideoloji prinsiplər dəqiq təsbitini tapır. Onlar sonradan elmi araşdırmalarda, ictimai biliklərdə, ictimai elmdə, böyüməkdə olan nəsillərin indi və gələcəkdə azərbaycanlıları birləşdirən vətənpərvərlik ruhunda təlim-tərbiyəsi sistemində gerçəkləşərək Azərbaycanın transformasiyasını və modernləşməsini təmin etməyə qadir olmalı, zəruri tarixi-mənəvi, dini, sosial-aksioloji təsəvvür və biliklər verməlidir.

2. Keçmiş haqqında biliklər müasir Azərbaycan cəmiyyətinin birliyinə xidmət etməli, identikliyin pozulmasına imkan verməməlidir. Onlar, ölkənin müxtəlif inkişaf mərhələlərində, forma və rejimlərdən asılı olmayaraq, dövlətçiliyin bütövlüyünün, onun əldə edilməsində gələcək nəsilləri ictimai və mədəni islahatlarda yaradıcılığa, kreativliyə can atmaqdan məhrum etməyən tarixi şəxsiyyətlərin rolunun fəlsəfi-tarixi və elmi cəhətdən əsaslandırılmış dərki ilə üzvi vəhdət təşkil etməlidir.

3. Müstəqilliyin dövlət əsaslarının sivilizasiyanın tələblərinə cavab, vahid xarakterini qoruyub saxlamağa isə imkan verəcək dərəcədə cəmiyyətin etnik və dini müxtəlifliyində konsensusun əldə edilməsinə, tarixi köklərin tanınmasına imkan yaradılmalıdır.

4. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin mənəvi irsi, Azərbaycan Prezidenti İlham Əliyevin siyasət fəlsəfəsi və strategiyası bu məqsədlərə çatmaq üçün zəruri zəmin yaradır.

5. Azərbaycan Prezidenti İlham Əliyevin modernləşmə xətti, Azərbaycanda post-sənaye cəmiyyətinin və güclü dövlətin qurulması strategiyası ümummilli liderin ideyalarının ardıcıl transformasiyası və həyata keçirilməsidir. Bu transformasiya post-sənaye cəmiyyətinə doğru hərəkət, güclü sosial siyasətə, innovasiya və informasiya texnologiyalarının inkişafına əsaslanan milli vətəndaş cəmiyyətinin inkişafı və tərəqqisinə səmtləşmiş iqtisadiyyata və bilik cəmiyyətinə keçid strategiyası vasitəsilə təmin olunur. Burada habelə siyasi, iqtisadi transformasiyalar və ictimai biliklərin, elmin, təhsilin və mədəniyyətin (mənəviyyatın) inkişafı arasında ayrılmaz əlaqə vurğulanır.

Bizim fikrimizcə, həmin məqsədlərə nail olmaq üçün bu plan müəyyən imkanlar yaradır. Nəzərə alınmalıdır ki, Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin əsərləri bu prioritetlərin inkişafı üçün mühüm konseptual zəmin təşkil edir. Vurğulamaq vacibdir ki, bizdə bu prioritetlərin ön plana çıxması üçün müəyyən hazırlıq işləri görülmüşdür. Fənlərarası tədqiqatlar fəlsəfəsinin problemlərinə həsr olunmuş toplular nəşr edilmiş, beynəlxalq konfranslar sayəsində müəyyən təcrübə toplanmışdır. Tarix fəlsəfəsi və azərbaycançılıq ideologiyası sahəsində dərin tədqiqatlar aparmaq planları tərtib edilib. «Azərbaycançılıq ideologiyası: tarix fəlsəfəsindən bu günə və gələcəyə» kitabının layihəsi hazırdır, bu kitabda aşağıdakı məqamlar əksini tapacaqdır:

1. Müasir dövrün əsas çağırışları sırasında dünya və regionun böyük dövlətlərinin (ABŞ, Rusiya, İran, Türkiyə) mənafeyinin üstünlüyü, transmilli korporasiyaların maraqlarının təsiri, neft-qaz bazarının qeyri-sabitliyi, dövlət suverenliyinə, iqtisadiyyata və mədəniyyətə (dil, milli dəyərlər, ailə institutu və s.) mənfi təsir təhlükələri kimi də təzahür edən qloballaşma. Dağlıq Qarabağ münaqişəsi böyük dövlətlər tərəfindən Azərbaycana qarşı istifadə olunduğundan təhdid və təhlükələrdən biri kimi çıxış edir.

Bu çağırışların cavabları ümummilli liderin xəttinin mahiyyətinin açıqlanmasını, Azərbaycan Prezidentinin modernləşmə, regional və dünya siyasətində (Azərbaycan və Qafqaz, Azərbaycan və Türkiyə, Azərbaycan və Rusiya, Azərbaycan və İran) güclü dövlətin inkişafı strategiyasının dərkini, millətin ideya birliyinin əhəmiyyətini (R.Mehdiyev. «Azərbaycan: qloballaşma dövrünün tələbləri keçmişin dərsləri, bu günün reallıqları və gələcək perspektivlər», «Azərbaycanı dəyişdirən on il», «Dünya ikili standartlar düzəni və müasir Azərbaycan»), bilik, innovasiyalar iqtisadiyyatına, informasiya texnologiyalarının prioritetinə və cəmiyyətdə kreativ təbəqələrin üstünlüyünə, demokratiyaya və milli hüquq dövlətinə keçidi nəzərdə tutur (4). Qloballaşmanın alternativinin olmadığını nəzərə alaraq, tarazlaşdırılmış siyasət yeritməklə böyük dövlətlərlə münasibətlərdə paritetə can atılmalıdır (R.Mehdiyev. «Dünya ikili standartlar düzəni və müasir Azərbaycan»), bu da milli mənafelərin müdafiəsini, məna və əhəmiyyətinin müasir anlamında milli identikliyin inkişafını, fəal diaspor siyasətini

nəzərdə tutur. Öz növbəsində, bu, informasiya texnologiyalarının inkişafı, dünya informasiya məkanına qoşulma və milli dəyərlərin inkişafı arasında qarşılıqlı əlaqənin əldə olunmasını tələb edir, bu zaman milli dəyərlər arxaik, statik və qeyri-konstruktiv şəkildə yox, bu günün keçmişlə, millinin beynəlmiləl ilə dialoqu kimi dərk olunmalıdır (R.Mehdiyev. "XXI əsrdə azərbaycançılıq ideyası kreativ insanlar milləti kontekstində") (5).

2. Hər bir cəmiyyət tarixən özündə daxili birliyə qabiliyyət formalaşdırır ki, xarici çağırışlara cavab verə bilsin. Azərbaycanda müasir milli identikliklə yanaşı, tarixən digər – dini, etnik identikliklər – islamçılıq (şiə və sünni variantlarında), türkçülük və s. formalaşmışdır. Hazırda bu identikliklərin hər biri milli identikliyin tərkib hissəsidir (köklüdür) və bundan sonra da olmalıdır, lakin bu və ya digər dəyişən şəraitdə təhdidə də çevrilə bilər. Müasir şəraitdə bizim üçün əsas dəyər dövlət, onun suverenliyi, ərazi bütövlüyüdür, məhz onlar milli identikliyin digər identikliklər üzərində prioritetini, müəyyən ideal və dəyərlərin başqalarına nisbətən üstünlüyünü müəyyən edir (6) (R.Mehdiyev. «Şah İsmayıl Səfəvi: hökmdar və döyüşçünün portreti», «Zaman haqqında düşüncələr və elitanı transformasiya edərkən»).

Nəzərə alınmalıdır ki, müxtəlif tarixi dövrlərdə başqa dəyərlər prioritet təşkil etmişdir (məsələn, uzaq keçmişdə dini dəyərlər, sovet dövründə ənənələr və dil). Buna görə də fərqləri vurğulamağa deyil, ümumi məqamlara səmtləşərək identikliyin dərkində bu dəyişkənliyi fəlsəfi-tarixi cəhətdən dərk etmək vacibdir. Başqa sözlə, bu proses millətin təbii tarixi-mədəni təkamülü kimi başa düşülməlidir. Ona görə də burada birliyi qoruyub saxlamağa çalışan tarixi şəxsiyyətlərin əhəmiyyətini vurğulamaq vacibdir (R.Mehdiyevin Şah İsmayıl Səfəvi, Ümummilli Lider, indiki Azərbaycan Prezidenti və ADR liderləri haqqında əsərlər silsiləsi). Din, ənənələr, dil bizə xas olan tolerantlıq kontekstində milli dəyərlərimizin ayrılmaz tərkib hissələri kimi dərk olunacaqdır. Hal-hazırda Maarifçilik dövrü xadimlərinin həm tarixi şəxsiyyət kimi, həm də müxtəlif dövrlər və şəraitlərdə cəmiyyətə xas olan, şanlı keçmişi bu günlə birləşdirən və gələcəyin vektorunu müəyyən edən dəyərlər olan təhsil və biliyə səy göstərmə kimi iştirakını, bilik iqtisadiyyatına, bilik cəmiyyətinə, post-sənaye cəmiyyətinə Maarifçilik fəlsəfəsi və onun idealları vasitəsilə can atmanı, Azərbaycan Prezidenti İlham Əliyevin strategiyası və onun modernləşmə xəttinin həyata keçirilməsini qüvvətləndirmək nəzərdə tutulur. (R.Mehdiyev. «İctimai və humanitar elmlər: zaman kontekstində baxış»).

3. Daha sonra Azərbaycan xarakteri və arxetipləri haqqında. Nəzərə alınmalıdır ki, milli xarakter və arxetiplər cəmiyyətin çətin tarixi şəraitdə yaşamasına, sağ qalmasına imkan yaratmışdır. Eyni zamanda, müəyyən səbəblərdən, imperiyaların tərkibində olmaqla əlaqədar onlar çox zaman ictimai şüurda mənfi konnotasiya (davamlı assosiasiyalar) yaradır. Çox zaman qloballaşma şəraitində də bu neqativizm xarici ictimai təşkilatların təbliğat fəaliyyəti nəticəsində möhkəmlənir. Ona görə də bu günün və gələcəyin çağırışlarına cavabda xarakterin əhəmiyyəti, onun cəmiyyətin mədəniyyəti

və mənəviyyatında, mədəniyyət və incəsənət xadimlərinin keçmişdə və indiki zamanda nailiyyətlərini müəyyən edən yaradıcılıq enerjisinin inkişafında polu, onlara təsiri və nəzərə alınması vurğulanmalıdır.

Liderlər və xalq arasında əlaqələrin ənənəviliyi haqqında. Eyni zamanda, yanlış başa düşülən xarakter cəhətləri və arxetiplər, miflərlə qidalanan xarici və daxili təhdidlərin müəyyən edilməsi önəmlidir.

4. Və nəhayət, millətin perspektivləri və yaxın gələcəyi, kiçik və orta biznesin inkişaf etdiyi, hər bir vətəndaşın mənafeyinə yönəlmiş iqtisadiyyat, siyasi sistemin inkişafı, milli-hüquqi dövlət, demokratiya və milli vətəndaş cəmiyyəti haqqında. Burada «Azərbaycan 2020: gələcəyə baxış» proqramının materiallarından istifadə etmək məqsədəuyğundur.

Ədəbiyyat:

Серл С. Новое открытие сознания. М., 1992.

Məmmədzadə İ. Fəlsəfə haqqında: müasir yanaşmalar, təmayüllər və perspektivlər. Bakı: Təknur, 2011.

Анкерсмит Ф.Р. Возвышенный исторический опыт. М.: Европа, 2007.

Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri – keçmişin dərsləri, bugünün reallıqları və gələcək perspektivlər. Bakı, 2004; Azərbaycanı dəyişdirən on il. Bakı, 2013.

Mehdiyev R. XXI əsrdə azərbaycançılıq ideyası kreativ insanlar milləti kontekstində. Bakı, 2012.

Mehdiyev R. Şah İsmayıl Şəfəvi: hökmdar və döyüşçünün portreti. Bakı, 2015.

Резюме

Об основных приоритетах Азербайджанской философии в контексте современной мировой философии

Ильхам Мамедзаде
Институт Философии
Национальной Академии Наук Азербайджана

Прежде чем остановиться на основных приоритетах современной азербайджанской философии, отметим, что в современной западной философии нет одного преобладающего направления, школы, доминирует плюрализм направлений и течений. Однако есть вопросы, интерес к которым вызывает стремление у философов подискутировать, выразить свое сомнение, обосновать и доказать свои выводы: во-первых, что есть философская истина, отличается ли она от истин научных и чем она необходима для науки; во-вторых, могут ли быть этичными политика, международные отношения и насколько можно использовать политику в морали, в ценностной системе и т.д. и, в-третьих, может ли история философии быть строгой, доказательной. С этим вопросом связан так или иначе вопрос о взаимоотношениях между национальной философией и универсальной.

Отметим различия между американской аналитической, европейской континентальной и российской философиями. Американская аналитическая философия – это прежде всего логико-лингвистический анализ вышеотмеченных вопросов. Логика, философия языка – это путь к поиску истины. Для европейской философии актуально осмысление или понимание того, что есть постмодернизм, а также анализ мультикультурализма, проблем диалога культур, коммуникаций. Научность здесь зачастую достигается с помощью мультидисциплинарных исследований. Таким образом, для общественных наук философия оказывается наукой, способной соединить данные различных наук. Российская философия пытается сочетать элементы аналитической и европейской философии. Подчеркивается, что наряду с философией языка, следует развивать философию сознания, культуры и опыта. К примеру, аналитическая философия не интересуется историей философии, а российская уделяет значительное внимание и универсальной, западной философии и философиям различных народов мира. В последнее время в ней значительное место отводится вопросам философии науки, проблемам истины. Необходимо подчеркнуть, что среди американских философов есть серьезные европейски ориентированные философы (Т.Рокмор).

Эти замечания позволяют нам сформулировать основные приоритеты нашей современной философии: во-первых, это мультидисциплинарные исследования, которые придадут доказательность не только философии, истории философии, но и в целом общественным наукам. Кроме того, они позволят консолидировать, сделав их доказательными и обоснованными в самой философии; во-вторых, необходим особый упор на развитие национальной философии истории и осмысление ее связей с историей философии; в-третьих, следует направить усилия на исследования в сфере идеологии азербайджанства, ее мультикультуральных оснований, нравственного и гражданского воспитания, философии просветительства и т.д.

Ключевые слова: Американская философия, Европейская философия, Русская философия, Междисциплинарные исследования, Междисциплинарный подход, Идеология азербайджанства, Мораль, Етика.

Summary

On the basic priorities of the Azerbaijani philosophy in the context of the modern world philosophy

Ilham Mamedzade

Azerbaijan National Academy of Sciences,
İnstitute of Philosophy

To dwell on basic priorities of the modern Azerbaijani philosophy, we'll note first in the modern Western philosophy no one prevalent trend, school exist, there pluralism of directions and tendencies dominate. However, there are issues which arouse interest of philosophers to discuss, to express their doubts, to substantiate own conclusions: first, on that what is philosophical truth, does it differ from scientific truths and by what it is necessary for science; secondly, can politics, internation relations be ethical, and how much politics may be used in moral, in values system and so on; thirdly, can the history of philosophy be strict, provable. In any case, the question on interrelations between the national philosophy and universal one is linked with this question.

Let's note the differences between American analytical, European continental and Russian philosophies. The American analytical philosophy is, first of all, logical and linguistic analysis of above mentioned questions. Logic, philosophy of language is a way to search of truth. For European philosophy an actual is comprehension or understanding of what is postmodernism, as well the analysis of multiculturalism, problems of dialog of cultures, communications. The scientific character is often achieved there by means of multidisciplinary studies.

Thus, for social sciences philosophy turns to be a science able to unite the data of different sciences. The Russian philosophy tries to combine the elements of the analytical and European philosophy. It is, emphasized that alongside with the philosophy of language that the philosophy of language philosophy of cognition, culture and experience should be developed. For istance, analytical philosophy has no interest in history of philosophy, and Russian philosophy pays a considerable attention also to universal, Western philosophy and philosophies of different peoples of the world. In recent time the questions of philosophy of science, problems of truth take abso a great place there. It is necessary to underline that among American philosophers there are serious ones oriented toward Europe (T.Rockmore).

These observations permit us to formulate the basic priorities of our modern philosophy: first, these are multidisciplinary researches which will attach proveness to philosophy not only, history of philosophy, but also to social sciences, on the whole. In addition, they will allow to consolidate making them conclusive and substantiated in philosophy itself, secondly, it is necessary to lay a special emphasis on development of national philosophy of history and comprehension of its links with history of philosophy; thirdly, an effort should be directed at researches in the sphere of ideology of Azerbaijanism, its multicultural foundations, moral and civic education, philosophy of enlightenment, etc.

Keywords: American philosophy, European philosophy, Russian philosophy, interdisciplinary studies, interdisciplinary approach, ideology of Azerbaijanism, moral, ethics.